# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ

"11" iyun 2020-ci il №10/656

**Dövlət orqanlarının və**
**dövlətə məxsus hüquqi şəxslərin**
**rəhbərlərinə**
**(siyahı üzrə)**

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin, Abşeron, Salyan, Kürdəmir, Yevlax və İsmayıllı rayonlarının ərazisində sərtləşdirilmiş karantin rejiminin tətbiqi ilə əlaqədar 2020-ci il 14-15 iyun tarixlərində aşağıdakıların təmin edilməsi sizə tapşırılır:

1. Bu məktuba əlavə edilən 1 və 2 nömrəli siyahılarda nəzərdə tutulan dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin dövlət orqanlarının (qurumlarının) fəaliyyətləri zəruri hesab edilən işçilərinin işlərə məhdud sayda cəlb edilməsi;

2. Bu məktubun əlavələrində və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 9 iyun tarixli 196 nöməli Qərarında nəzərdə tutulmayan dövlət orqanlarının (qurumlarının) işçilərinin işlərə cəlb edilməməsi (dövlət orqanlarının (qurumlarının) rəhbərləri və onların müavinləri istisna olmaqla);

3. Həmin tarixlərdə fəaliyyətinə icazə verilməyən dövlət orqanlarının (qurumlarının) fasiləsiz fəaliyyət göstərən növbətçi xidmətləri olduğu təqdirdə, həmin növbətçi xidmətlərin siyahısının Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahla razılaşdırılması.

**Əli Əsədov**

## SİYAHI 1

### Dövlət əhəmiyyətli və həyat təminatı müəssisələr və qurumlar

1. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti (*bilavasitə su təchizatı və kanalizasiya sisteminin fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
2. "Azəriqaz" İstehsalat Birliyi (*bilavasitə qaz təchizatı sisteminin fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
3. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti (*bilavasitə elektrik enerjisinin paylanması sisteminin fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
4. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti (*bilavasitə elektrik enerjisinin istehsalı və ötürülməsi sisteminin fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
5. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti (*bilavasitə istilik və isti su təchizatı sisteminin fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
6. Dövlət Neft Şirkəti (*neft və qazın istehsalı, emalı, saxlanması və satışı, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda rekonstruksiya fəaliyyəti*)
7. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (*bilavasitə su təminatı, meliorasiya və irriqasiya sistemlərinin istismarı fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
8. "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti (mərkəzi aparat istisna olmaqla)
9. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (*mərkəzi aparat istisna olmaqla*)
10. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti (*bilavasitə yük daşımaları fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
11. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (*bilavasitə yük daşımaları fəaliyyətinə cəlb olunan işçilər, qəza xidməti*)
12. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
13. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (*növbətçi xidmətlər*)
14. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (*növbətçi xidmətlər, Xırdalan dairəsinin, Sulutəpə dairəsinin, Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısındakı yol hissəsinin və Bibiheybət sürüşmə zonasında yenidənqurma işlərinin həyata keçirilməsinə cəlb olunan işçilər*)
15. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi
16. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti (*mərkəzi aparat istisna olmaqla*)
17. Dövlət Dəniz Agentliyi (*növbətçi xidmətlər*)
18. Dövlət Mülki Aviasiya Agentliyi (*növbətçi xidmətlər*)
19. Şəhər və rayon icra hakimiyyəti orqanlarının, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinə icazə verilən kommunal xidmətləri həyata keçirən qurumları
20. "Azərkontrakt" Səhmdar Cəmiyyəti (*nəzdində fasiləsiz fəaliyyət göstərən müəssisələr*)
21. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)

22. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “AzInTelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)
23. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)
24. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidməti (*növbətçi xidmətlər*)
25. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (*növbətçi xidmətlər*)
26. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (*növbətçi xidmətlər*)
27. “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti *(“Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyəti, “ASK Şüşə” Məhdud Məsuliyyətli Cəmiyyəti və növbətçi xidmət)*
28. “Azercell Telecom” Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)
29. “Bakcell” Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)
30. “AzerFon” Məhdud Məsuliyyətli Cəmiyyəti (*növbətçi xidmətlər*)
31. "Delta Telekom" Məhdud Məsuliyyətli Cəmiyyəti (növbətçi xidmətlər)
32. “AzerTelecom” Məhdud Məsuliyyətli Cəmiyyəti (növbətçi xidmətlər)
33. Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları
34. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət və sosial reabilitasiya müəssisələri
35. “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti
36. İctimai Televiziya və Radio Yayımları Şirkəti
37. “SOCAR Petroleum” Qapalı Səhmdar Cəmiyyəti (*yanacaqdoldurma məntəqələrinin fəaliyyəti üzrə*)
38. “Azpetrol Ltd” Məhdud Məsuliyyətli Cəmiyyəti (*yanacaqdoldurma məntəqələrinin fəaliyyəti üzrə*)
39. Logistika mərkəzləri (*siyahısı İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilən*)

## SİYAHI 2

## Fəaliyyət göstərən dövlət orqanları (qurumları)

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və İşlər İdarəsi
2. Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı və İşlər İdarəsi
4. Məhkəmələr və Vəkillər Kollegiyası (*növbəlilik rejimi əsasında tövsiyyə edilir. Növbətçilik siyahıları Prezident Administrasiyası tərəfindən müəyyən edilir*)
5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (*həmçinin Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşları və onların yerli heyəti*)
6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (*işçilərini məhdud sayda (25%) işlərə cəlb etməklə*)
7. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
8. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi (*baytarlıq idarələri və bitki mühafizə mərkəzləri, Aqrolizinq ASC*)
9. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (*məhsulların ixracının fasiləsiz həyata keçirilməsinin təmin olunması məqsədilə mənşə sertifikatlarının verilməsi ilə əlaqədar, həmçinin digər dövlət orqanları və qurumları tərəfindən Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemindən və Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarə Edilməsi Sistemi, Ünvan Reyestri İnformasiya Sistemi və İpoteka Kağızının Elektron Sistemindən istifadənin təmin edilməsi üçün növbətçi xidmətlərin işlərə cəlb edilməsi*)
10. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
11. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (*imtahanlarının hazırlıq işlərinə cəlb edilən işçilər*)
12. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB), dövlət səhiyyə müəssisələri
13. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti
14. Əmanətlərin Sığortalanması Fondu (*15 nəfər*)
15. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc) (*işçilərini məhdud sayda (10%) işlərə cəlb etməklə*)
16. Şəhər və rayon icra hakimiyyəti orqanları (*mərkəzi aparat üzrə işçiləri məhdud sayda (10%) işlərə cəlb etməklə*)
17. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (*mərkəzi aparat üzrə işçiləri məhdud sayda (10%) işlərə cəlb etməklə*)
18. Dənizkənarı Bulvar İdarəsi (*mərkəzi aparat üzrə işçiləri məhdud sayda (10%) işlərə cəlb etməklə və növbətçi xidməti*)